# Ünvanina çatmayan məktub

**Ölüm var ki həyat kimi dəyərli,**
**Həyat var ki, ölümdən də zərərli.**

İnsanın cəmiyyətdəki yerini onun şərəf və ləyaqəti müəyyən edir. Düşmən qarşısından qaçmağı və ya gözünə görünməyib gizlənməyi igidlik hesab edənlərin nə ləyaqəti, nə vətəni ola bilər.

İnsan heyvandan fərqli olaraq seçim edən varlıq kimi yaradılmışdır. Hər bir insan anadan olandan ölənə kimi hər an düzlə əyri, günahla savab, yaxşı ilə pis, halalla haram, igidliklə qorxaqlıq təzadları arasında seçim qarşısında dayanır. İnsan dünyaya göz açdığı gündən etibarən dərk edir ki, bir gün o, bu dünyadan gedəcək. Yüksəkliyə can atmaq insanın təbiətindəndir. O, dünyaya gəldiyi andan tez boy atmaq, böyümək, ağıla-kamala dolmaq istəyir, öz bacarıq və qabiliyyətini, bilik və hünərini göstərməyə can atır. Bu yüksəlişin ən uca zirvəsi isə şəhidlikdir.

Şəhidlər-qaranlıq keçmişimizdən işıqlı sabahımıza boylanan azadlıq pöhrələri, yüksəlişə, ucalığa can atan "qəlb dünyamızdır!". Əsl qəhrəman-sonunu da qəhrəmanlıqla başa vurandır.

Şəhidlərimizə vətən oğul dedi, onları oğul adlandıraraq bağrına basdı. Onlara öz qoynunda yer verdi. Şəhidlərimiz də vətən torpağına qovuşaraq onu daha da dəyərləndirdilər. O torpaq müqəddəsdir, çünki neçə-neçə igidimizin qanı ilə suvarılmışdır.

**Bayraq oldunuz enmədiniz-,**
**Şəhid oldunuz ölmədiniz-,**
**Günəş oldunuz sönmədiniz-,**
**Qarabağı aldınız, ancaq geri dönmədiniz!**

Tarixin hansısa səhifəsini vərəqləyib bir xalqın taleyinə yazılmış qəhrəmanlıq salnaməsinə diqqət yetirdikdə dəyişməyən həqiqətin şahidi olursan. İnsanı məhkum etmək olar, lakin şücaəti, mərdliyi, vətənpərvərliyi şərəfi və fədakarlığı boğmaq olmaz. Milli mənsubluğuna görə fərqlənən bu keyfiyyət insanın daxili gücünün, qətiyyətinin, bəzən də, barışmazlığın, ədalətsizliyə qarşı mübarizliyin nümunəsi, məkanı isə müqəddəs sayılan şəhidlik zirvəsi olur.

Şəhidlər sanki günəş kimi həmişə yüksəkdə olur və günlərimizi aydınlatmaqda davam edirlər. İnsanlıq səmasında parlayan ulduzlar kimi daima sönməz, qartallar kimi enməz olurlar. Göylərə baş çəkən əzəmətli, vüqarlı dağlarımıza bənzərlər. Deyirlər ki, "Şəhidlər ölməz!..." Şəhidlər unudularmı, ölərmi heç? Hər dəfə o torpaqlara ayaq basanda əvvəlcə səbəbkarlara minnətdar olacağıq. Şəhidlərin ölümündən həyat doğulur. Onlar qanlarıyla nə qədər torpağa, gülə, çiçəyə can verdilər. Həsrətin nəfəsini əbədilik kəsib vüsala, ölümü öldürüb ölümsüzlüyə can verdilər.




Bəli, onlar ölməz, sadəcə cismən bizlərdən ayrılar, vətənin göylərindən bizləri seyr edərlər. Onlar söz verdilər ki, övladlarının rahat yaşamaları üçün hər şey edəcəklər, etdilər də. Tək öz övladları üçün deyil, bütün övladlarımız, xalqımız üçün canlarını qurban verdilər... İllərdir həsrətini çəkdiyimiz torpaqlarımızı geri qaytardılar, lakin özləri geri qayıtmadılar...

Cibindəki sevgi şeirləri qırmızıya boyanan kim, şəhid dostunun son nəfəsində başı üstündən iki ağ göyərçinin uçduğunu görən kim, mərmilərdə çiçəklər açdıran kim, son nəfəsini "qızım" deyə-deyə verən kim... Hər əsgərin taleyi bir hekayədir - yarasına duz tökülənlər, əsir düşənlər, işgəncə görənlər, şəhid qardaşlarını çiyinlərində daşıyanlar, ağrıların ən dözülməzini çəkənlər...

**Qasımov Təbriz Rasim oğlu...**

Təbriz Qasımov 16 fevral 1993-cü ildə Qəbələ rayon Yemişanlı kəndində dünyaya göz açıb. 1999-2008-ci illərdə Şükran Eyvazov adına Yemişanlı kənd orta məktəbində təhsil alıb, daha sonra isə Şəki Pedoqoji Kollecində ibtidai sinif müəllimi ixtisası üzrə təhsilini davam etdirib. 2011-ci ildə həmin kolleci bitirib.

Qasımov Təbriz 2012-ci ildə Sumqayıt şəhəri "N" saylı hərbi hissədə həqiqi hərbi xidmətdə olub. Təbrizin hərbiyə sevgisi elə buradan başlayır. Onun vətən sevgisi, dövlətinə bağlılığı, bayrağa sədaqəti hərb sənətinə yiyələnməsinə təkan verir və 2015-2018-ci illərdə Daxili Qoşunlarda gizir rütbəsində xidmət edir.

**Gerçəkləşən arzu...**

Hər kəsin bu həyatda gerçəkləşməsini istədiyi bir arzusu vardır. Kimi gözəl həyat arzulayar, kimisi bahalı maşın, gözəl ev, yaxşı iş... Onun isə tək bir arzusu var idi: O müqəddəs zirvəyə ucalmaq... Təbrizin arzusu gerçəkləşdi. Torpaq onu öz qoynuna aldı. O da öz qanı ilə torpağı suvardı, müqəddəsləşdirdi. O, bu arzusunu son dəfə noyabrın 5-də həyat yoldaşı ilə danışarkən dilə gətirir; "Dua edin mən şəhid olum". Onun ailəsi üçün yazdığı məktub da ünvanına çatmır. Kim bilir o məktubda Təbriz hansı son sözlərini, son istəklərini yazmışdı. Bəlkə də qızına deyəcək sözləri vardı o məktubda. Lakin o məktub da, o son sözlər də ailəsinə çatmadı...

Təbriz Qasımov Tovuz döyüşlərində dəfələrlə könüllü olaraq orduya yazılmış, lakin aparılmamışdı. O isə bir neçə dəfə israrla döyüşə getmək üçün müraciət edir və nəhayət, istəyinə çatır. Sentyabrın 27-dən etibarən könüllü olaraq döyüşlərə qatılır. Döyüşə aparıldıqdan sonra Təbrizin gizir rütbəsi bərpa edilir. O, Füzuli və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edir və noyabrın 6-da Xocavənd istiqamətində gedən döyüşlərdə qəlpə yarası alaraq öz arzusuna çatır. Şəhidlik zirvəsinə ucalır... O qəlpə Təbrizi arzusuna çatdırsa da: 5 yaşlı Fatiməni atasız qoyur.

Bu gün Təbrizin bizə əmanət qoyub getdiyi balaca Fatimə atasının bir gün gələcəyinə inanır. İyulun 22-si Fatimənin artıq 5 yaşı tamam oldu. Fatimə indi heç nəyi dərk etmir, ancaq böyüdükdə onun üçün bu günün xüsusi əhəmiyyəti olacaq. Çünki həmin gün onun atasız ilk doğum günü oldu. Fatimə bunu dərk edəndə kədərlənəcək, atasının heç vaxt gəlməyəcəyini, şəhid olduğunu biləcək. Lakin o, şəhidliyin necə bir zirvə olduğunu bildikdə atası ilə fəxr edəcək.

Hər qızın atası onun qəhrəmanıdır. Təbrizdə sözün həqiqi mənasında qızının ilk və son qəhrəmanıdır. Çünki o qızı üçün canını fəda etdi. Fatimə də atası kimi daim gülür, çünki o bütün şəkillərdə atasını yalnız gülən görüb və nə xoşdur ki, o atasını bu cür gülən üzlə, nur siması ilə yaddaşında saxlayacaq.

Təbriz Qasımov ölümündən sonra "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub. Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz müqəddəs amal uğrunda şəhid olursa, bu, xalqımızın böyüklüyüdür. Şəhid verməyən xalqın mənliyi olmaz. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Ruhun şad olsun nur üzlü şəhidim. Biz səni yaddaşımıza hər zaman gülən simanla həkk etdik. Bu gün sənin bizə əmanət qoyub getdiyin qızın da sənin kimi daim gülür, başı dik dayanır. Çünki o, düşmənin üzərinə gözünü qırpmadan gedən, keçdiyi yerləri, torpaqları titrədən igidin qızıdır. Fatimə hər şeyi dərk etdiyində böyük bir fəxrlə deyəcək ki, mənim atam həqiqətən bir igiddir və mənim qəhrəmanımdır.

Hər birimizin vətəndaşlıq borcudur ki, şəhidlikləri ilə bizə qələbə sevinci yaşadan bu oğulları daim qəlbimizdə yaşadaq.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

(Əvvəli 5-ci səhifədə).

# Bir ordu deməkdir bəzən bir ürək

mənəvi iztirabını başa düşür və bunlara son qoyulacağını bilirdi. Ancaq illərin bu arzuların reallığını inamsızlaşdırmasını heç cür qəbul edə bilmirdi... 2020-ci ilin iyul hadisələri onu da qəlbən acıtmış, general və bəzi hərbi rütbəlilərin, əsgərlərin şəhid olması vətəni müdafiə üçün səfərbərlik və silah yolu ilə bu azğınlıqlara son qoymaq arzusunu alovlandırmışdı. Səfərbərlik üçün ölkə vətəndaşlarını yaşından asılı olmayaraq səfərbərliyə müraciətləri onun qələbə əzmini gücləndirmişdi.

2020-ci ilin sentyabr ayında artıq qisas müharibəsinin labüdlüyünü hiss etmişdi.

2020-ci ilin sentyabr ayının 21-də Rəsul həkim də bir qrup vətəndaşla Goranda hərbi təlimlərdə iştirak etdi və həmçinin təlimdə olan gənclərin səhhəti ilə bağlı onlara lazımi tibbi xidmət etdi.

İnsan üçün ən çətin olan şey hər gün insan olaraq qalmaqdır. Rəsul həkim bu çətinliyi dəf edən biri idi.

**Ayrılıqlar baxışların dili ilə**

Rəsul həkimin ömrünə də müharibə yazıldı...

Bu haqda informasiyası var idi, kino-filmlərdə görmüşdü. Və körpə ikən müharibə və döyüşçü məfhumlarını öz xəyal dünyasında o qədər canlandırmışdı ki... Həqiqi müharibə düşüncələri isə tamamilə başqadır.

Əzizlərindən ayrılırsan və əbədiyyən ayrılacağını düşünərək vidalaşırsan. Ən böyük övladınızla vidalaşarkən hansı hissləri keçirdiniz bir anlıq?-, deyə soruşduqda ürəyinin bütün bədənini titrətdiyini, gözünün nəmliyini gördüm və mən də onun həssas qəlbinin kövrəkliyini hiss etdim.

Valideyinlərinin, əzizlərinin gözünə baxa-baxa qorxmazlığını hiss etdirmək mümkündür, ancaq övlad baxışlarına göz zilləmək daha çətindir... Bu baxışlar onların həyat yollarının diktəsidir axı!...

**Yaşananları silməyin mümkünsüzlüyü**

Sentyabrın 27-si axşam Tərtərə yollandıq. Divizyon mərkəzi Tərtərin idman kompleksinə yaxın idi. Mən bir həkim kimi 6 əsgər və xidməti maşın ilə yaralılarımıza xidmət edəcəkdim. Əsgərlər arasında tibb qardaşları, feldşerlər var idi. Artilleriya divizyonunda xidmət edirdim. Mənimlə bərabər 50 yaşlı Azər həkim də əsgərlərimizin sağlamlığı keşiyində idi. Bərdə rayonunun Kələntərli kəndindən olan bu həkim Tapqaraqoyunluda gedən döyüş zamanı yaralı əsgərə xidmət edərkən şəhid oldu...

Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid və yaralılarımıza xidmət etmişik. Qafur adında xidmət rəisimiz vardı, o yaralı və şəhidlərimizi düşmən əlində qoymazdı. Və bizi ağır döyüşlər zamanı ön cəbhəyə buraxmazdı. Qafur yaralı əsgərlərimizi bizə çatdırar, biz onlara xidmət göstərər, daha sonra başqa xəstəxanaya göndərərdik. Tapqaraqoyunlu, Ağcakənd, Talış kəndi-istiqamətində gedən döyüşlərdə olduq və döyüşçülərimizə qulluq etdik.



Polkovnik-leytenant Əfqan Abdurahmanov qərərgan rəisimiz idi, yeni təyin olunmuşdu. O, həmişə öndə olar, əsgərləri qoruyardı. Polad Həşimov kimi, səngərlərdə-əsgərlərinin yanında olardı. Qəhrəmanlıqla döyüşən bu igidin şəhidliyi hər kəsi qəlbən ağrıtdı, axı, o bir hərbçi kimi ordumuza gərəkli insan idi. Rayonumuzun Tüntül kəndindən olan qazi Səxavət Baxışov da döyüşlərdə qəhrəmanlıqla vuruşmuşdu.

**Döyüşdə döyüşçülərdə qələbə əzmi var idi.**

Hər kəs döyüşə ürəklə, düşmənə nifrət və qisas hissi ilə gedirdi. Əsgərlərin yemək və hərbi sursatla təminatı güclü olsa da, bəzən cəbhə bölgələrində yüksəkliklərə ərzaq təminatı çətinləşirdi, döyüşlərin davamlı olması məsafə baxımından yaranan çətinliklər belə onların döyüş əzmini qırmırdı.

Həkimlər döyüş bölgələrində yalnız həkim deyildi, həm də döyüşçü idi, əsgərlərin həyat qarantı, yaşamaq inamı, bir növ arxası idi.

Qələbə xəbərini eşitmək hər kəsin arzusu idi. Ancaq qələbə xəbəri ərəfəsində biz növbəti hücuma hazırlaşırdıq. Səhərki hücum düşüncəsi ilə döyüşlərin dayandırılması və əsgərlərimizin qazandığı döyüş şücaətlərinin nəticəsi elan olunanda o qədər sevindirici idi ki... Məni ailəmizdən ilk təbrik edən atam oldu. Qələbə xəbərindən onun, ana və bacılarımın, ailə üzvlərinin hər birinin sevinc hissindən xəbər verdi atam. Bu bizim güclü ordumuzun qələbəsi idi. Düzgün siyasətçi və Ali Baş Komandan İlham Əliyevin müharibənin başa çatdığını xəbər verməsi ilə bərabər çıxışı bütün xalqımızı sevindirdi, zəfər paradının keçirilməsi insanların 30 ilə yaxın "məğlub ölkə" deyiminin həqiqət olmasının bariz və canlı nümunəsi idi.

**Yeni il hədiyyəsi**

Rəsul həkim Zəfər bayramı qeyd edildikdən düz 22 gün sonra ordudan tərxis olundu. Bu ərəfədə O, Qubadlıda, Laçının Bozlar kəndində olmuşdur.

Rəsul həkim doğulduğu ailədə tək oğlandır. Bacılarının-Lalə və Yaqutun arxası olan həkim qardaşları müharibə dövründə yüzlərlə döyüşçünün arxası və sağlamlıq talismanı oldu. Anası Xanım xanımın, həyat yoldaşı və 4 övladının, atası Qurban Babayevlərin deyil, bu gün hamı üçün doğma insan olan, onların həyatına həyat bəxş edən bir insandır Rəsul.

Axı o, həkimdir, sağlamlıq keşikçisidir.

Dekabrın 30-u tarixində evə dönməsi xüsusilə Fatimə, Mədinə, Əliheydəri daha çox sevindirmiş, həyatlarına tarixi bir gün kimi yazılmışdı. Evin kiçiyi olan Qədriyyə Zəfər bayramından sonra dünyaya göz açmışdı. Bəlkə də Uca Tanrı onu balaca Qədriyyəyə görə məkrli düşmən gülləsindən qorumuşdu, kim bilir...

Rəsul Babayev "Laçının azadlığı uğrunda" medalı ilə təltif olunmuşdur. Ən böyük təltif isə onun əzizlərinin simasındakı təbəssüm idi...

Bəli, insan üçün yaşadıqlarını nə yenidən yaşamaq mümkündür, nə də yaşadıqlarını silmək.

Şair çox gözəl deyib:

**Onunla keçirik hər imtahandan,**
**Bir ordu deməkdir bəzən bir ürək!**

Belə bir ürək sahibidir Rəsul həkim!

**BİBİXANIM.**